

Ələsgər ƏLİOĞLU

# İki hekayə

## SƏHV SALINAN QƏBİR

Avtobusdan düşən Sahib kənd yolu ilə addımladıqca heyrətlənirdi.O,evdən sonuncu dəfə otuz il qabaq çıxmışdı.Öyrənib bilmişdi ki,atası dünyasını dəyişib... Onu da öyrənib bilmişdi ki,kənddəki bacısıgil son zamanlarda köçüb Bakıda məskunlaşıblar və anasını da özləri ilə aparıblar.Sahibi heyrətləndirən kənddə olan dəyişikliklər idi.O,kənddən sonuncu dəfə torpaq yolla çıxmışdı,indi isə evlərinə doğru asfalt yolla addımlayırdı...Evlərin sıxlığı və ümumi görüntüsü də onun diqqətini özünə cəlb edirdi.Sahibin kənddə bir qohum-əqrabası yox idi.Təkcə Rusiyada arabir görüşdüyü Müslümün bir-iki il qabaq kəndə qayıtdığını bilirdi.Həmişə də o,Sahibi Saşa,Sahib də onu Mişa çağırırdı.İndi o,tələsirdi,istəyirdi ki,tezliklə Müslümü tapıb onunla görüşsün,bir ətraflı hal-əhval tutsun...

Sahib bir güc-bəla ilə öz evlərini tapa bildi.Sanki onların evi şifir papağı olmadığı üçün utandığından yetim uşaq kimi bir küncə qısılmışdı.Sahib qapiya yaxınlaşdı.Əlini qıfıla uzatdı.Pas atmış qıfıl yenə də öz etibarını itirməmişdi.Qapını aça bilməyən Sahib yenidən kəndin ortalığına sarı addımladı. Başını o, günlüyünə "Kafe" yazılmış qıvraq tikilidən içəri saldı.İçəridə Səfiyar kişidən başqa adam yox idi...Səfiyar kişi aradan neçə illər keçməsinə baxmayaraq Sahibi tanıdı:

-Ayə,ayə,xoş gəlmisən öz elinə,obana!De görək,Rusetdə nə var,nə yox...

-Sağlığın,Səfiyar kişi.Mişa kənddədirmi,heç gözünə sataşırmı?

-Mişa kimdir,ə...

-Müslümü deyirəm də...

-Ayə,vaxtına bir şey qalmayıb,indi gələcək.Hara hərlənsə də, yarımçığını gəlib burada düzəldir.

-Qəlyanaltıdan-zaddan bir şeyin varmı?

-Qayğanaqla aran necədir?

-Nə deyirəm,bir-iki yumurta çal də...Bir də bir çubuş ver.

Sahib qayğanaqdan azacıq dadıb,birinci "yüzü " içəri ötürmüşdü ki,Müslüm içəri girdi.Köhnə dostlar bir-birinə sarıldılar...Xoş-beşdən sonra onlar gənəşikli şəkildə stola əlavə sifariş verdilər...Süfrədə boş butulkaların sayı artmaqda idi.Sahib tez-tez atasını xatırlayır,xatırladıqca da kövrəlirdi:

-Mişa,atam öləndə dəfnində iştirak edə bildinmi?

-Saşa,məni nə yerinə qoymusan!? Bəs necə,kişi yuyat yerindən torpağa qədər bax qardaşının bu çiyinlərində gedib.

Bu sözlərdən sonra Sahib bir təhər özünü ələ alıb ayağa qalxdı və bir neçə dəfə Müslümün alnından öpdü:

-Brat belə olar də!Gəl onda gedək qəbristanlığa,gec də olsa,kişini bir ziyarət edim ...

Müslüm yamanca yerdə ilişdiyini görüb bir bəhanə axtardı:

-Axşamüstü qəbristana getməzlər,Saşa,qoy qalsın sabaha.

Sahib inad göstərdi:

-Heç nə olmaz,indi gedək!..

Müslüm dostunun tərsliyinə yaxşı bələd olduğu üçün çox da uzatmadı.Dostlar kafedən üzülüşüb səndələyə-səndələyə qəbristanlığa üz tutdular.Elə ki,dostlar qəbristanlığın qapısından içəri keçdilər Müslüm dövükə-dövükə qaldı.

O bilmirdi ki,Sahibi indi hansı səmtə çəkib aparsın və desin ki,dədənin qəbri bax budur.

O,Sahibin dədəsinin sir-sifətini də bir əməlli-başlı xatırlamırdı...Həm də latın əlifbasını yaxşı bilmədiyindən başdaşılarındakı yazıları oxumaqda çətinlik çəkirdi...

Müslümün dövükə-dövükə hərləndiyini görən Sahib axırda dilə gəldi:

-Brat,dədəmi çiynində qəbristanlığa necə gətirmisən ki, qəbrinin yerini də bilmirsən?

Müslüm bir təhər özünü ələ alıb dilləndi:

-Saşa,nə danışırsan,bax bu əllərimlə kişini qəbrə mən özüm sallamışam.Amma indi sənin bu vaxtsız gəlişindən tamam otkluçat olmuşam...

Müslüm qəbristanlığı aşağı-yuxarı hərlənib axırda bir qəbrin tuşunda dayandı:

-Bu da dədənin qəbri!

Sahib elə bu sözə bəndmiş kimi özünü qəbrin üstə sərib dil deməyə başladı:

-Ay övlad üzünə həsrətli qalan dədə!Nu,nu...bir az gözləyə bilmirdinmi gələm çıxam!

Sahib şəkilə baxdıqca vaysınırdı:

-Mişa, mən kənddə olanda dədəm bığ saxlamırdı.Amma görünür kişi sonradan-sonraya bığ saxlamaq fikrinə düşübmüş...Rəhmətlik lap Çapayevə oxşayır...

Sahibin dar axşam çağı qəbristanlıqda saldığı vay- şivən qəbristanlıq gözətçisini öz balaca daxmasından çəkib çıxartdi.O,bir az dayanıb kənardan matdım-matdım baxdı..Sahibin belə vayşivən qoparmasını görüb irəli yeridi:

-A bala,sən rəhmətlik Kamal kişinin oğlusan?

Sahib bu sözdən diksinən kimi oldu:

- Kamal kişi kimdir,starık,mən Kəlam kişinin oğluyam.

Gözətçi ani olaraq düşüncəyə daldı və sonra acı bir təbəssümlə dilləndi:

-Bəs onda niyə Kamal kişinin qəbri üstə vay-şivən qoparırsan,a bala?..

Sahib sanki yüxudan ayıldı.Qəddini azacıq düzəldib, bayaqdan üzərinə göz yaşını leysan kimi axıtdığı başdaşına dönə-dönə nəzər yetirdi.Handan-hana üzünü çevirib tərs-tərs Müslümə baxdı...

## İKİƏLLİ SƏS VERMƏ

Kolxoz sədri seçkisinə bircə gün qalırdı.Buna görə də Səfər kişi hər cür hazırlıq işlərini başa çatdırmış,hətta qabaqlayıcı tədbirlər də görmüşdü.O,yaxşı bilirdi ki,yığıncaqlarda kim ağzına su alıb durandır,kim arı pətəyinə çöp uzadan... O,kəndin dilli-dişlilərini qədərincə təlimatlandırmışdı... Dil tərpədənin ağzından vuranları,hap-kopla meydan sulayanları,pitin dünbəyinə birə yaxanları,bir sözlə, işinə yarayanların hamısını bircə-bircə ovsunlamışdı.Hələ Danaqarın Hümbətin "kişi,mən sənə ikiəlli səs verəcəm ,arxayın ol" deməsi də onu lap meyxoş etmişdi.Səfər kişi "hərisini" aldiqlarının hər birinə də ayrılıqda bildirmişdi ki, elə seçki qurtaran günün sabahına qonağımsınız.Özü də bir qonaqlıq verəcəm ki,illərlə dadı damağınızda qalsın...

Səhəri gün keçirilən yığıncaqda bəzi çıxışlardan cəhli cücərsə də,təlim keçmiş iştirakçıların çıxışları həmin cücərtiləri şaxta kimi kəsdi...Səfər kişi yenidən kolxoz sədri seçildi.Seçki qurtaran günün səhəri ona səs verənlər günortaya yaxın iki-bir,üç-bir Səfər kişinin həyətinə toplaşmağa başladılar.Məclis qızışdıqca qızışdı.Ayağa qalxanların hər biri tostunu at örüyü kimi çəkib hansı səmtə uzadırdısa da, axırını gətirib Səfər kişiyə bağlayırdı .

Yeməkdən-içməkdən yükünü tutanlar,yəni toqqasının altını bərkidənlər Səfər kişiyə bir daha gözaydınlığı verib yavaş-yavaş dağılışmağa başladılar.Səfər kişi axırda baxıb gördü ki,bir özü qalıb,bir də Danaqarın Hümbət .Buna görə də o,sonuncu qonağı da bir təhər başından əkmək istədi:

-Hümbət kişi,şoferə deyim səni aparsın.

Danaqarin Hümbət dilləndi:

-A sədir,day şam yeməyinə nə qalib ki,bir mitəkkədən-zaddan ver,elə atüstü olsa da burada gözümü aldadim...

-Hümbət kişi,niyə gedib evinizdə rahatca istirahət eləmirsən ki?

Bu sözlərdən Danaqarın Hümbət qeyzlənən kimi oldu:

-A qardaş,mən bu seçkdə sənə ikiəlli səs verdim. Görmədinmi,əllərimin ikisini də qaldırmışdım!..Birini nahar yeməyi üçün,birini də şam!..

Səfər kişi Hümbət kişinin bu sözlərindən sanki yuxudan ayılan kimi oldu.Əlacsız halda başını astaca-astaca yelləməyə başladı...